**"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

*1. Müəyyən edilsin ki:*[1]

*1.1. "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 6.4-cü və 9.2-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*1.2. həmin Qanunun 6.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*1.3. həmin Qanunun 6.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 9.2-ci maddəsində hər iki halda qurum dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.*

2. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 yanvar 2004-cü il
№ 19

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 07 iyun 2011-ci il tarixli **434** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 09 iyun 2011-ci il,** № **117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il,** № **126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 489)**
2. 11 iyun 2018-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 iyun 2018-ci il,** № **137)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 07 iyun 2011-ci il tarixli **434** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 09 iyun 2011-ci il,** № **117, "Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il,** № **126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 489)** ilə 1-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1. Müəyyən edilsin ki, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentiiyi həyata keçirir.~~

11 iyun 2018-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 23 iyun 2018-ci il,** № **137)** ilə 1-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1. Müəyyən edilsin ki:~~

~~1.1. "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~1.2. həmin Qanunun 5.2-ci maddəsində, 6.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 9.2-ci maddəsində hər iki halda nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.~~